# Tərtər, Ağdam, Füzuli və Ağcabədi rayonlarında baş verən yanğınların qarşısı alınıb

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir. Bunun nəticəsində mülki obyektlərdə dağıntı və yanğınlar baş verir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirilir.

AZƏRTAC Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadla xəbər verir ki, sentyabrın 29-da Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər nəticəsində Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində yerləşən və “Azərişıq” ASC-yə məxsus transformatorda yanğın başlayıb. Transformatorun qoruyucu açarı və giriş-çıxış kabeli 15 poqonmetr yansa da, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində transformatorun özü yanğından mühafizə olunub.

Bundan başqa, ötən gecə Ağdam rayonunun Əhmədağalı kəndində düşmən mərmisinin düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verib. Operativ müdaxilə sayəsində obyektin bir hissəsi və bitişik ev yanğından mühafizə olunub. Ağdam rayonunun Baharlı-1 qəsəbəsində yerləşən vətəndaşa məxsus təsərrüfat obyektində də baş vermiş yanğın söndürülüb, obyektin bir hissəsi yanğından mühafizə olunub.

Həmçinin ötən axşam və gecə saatlarında Ağdam rayonunun Əhmədağalı, Çəmənli, Sarıcalı kəndlərində fərdi yaşayış evləri və təsərrüfat obyektlərində, Tərtər rayonunun Əskipara kəndində təsərrüfat obyektlərində yanğınlar baş verib. Bu ərazilər düşmən tərəfindən intensiv atəşə məruz qaldığından yanğınlara müdaxilə etmək mümkün olmayıb.

Ağdam rayonunun Baharlı-1 qəsəbəsində isə mərminin atılması nəticəsində evdə dağıntı olsa da, yanğın baş verməyib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Mənfur əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin sentyabrın 30-da atdığı mərmi nəticəsində Füzuli rayonunun Cocuq Mərcanlı kəndində yerləşən “Oba” marketdə yanğın baş verib. Əraziyə cəlb olunmuş FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində marketin bir hissəsi yanğından mühafizə edilib.

Ağcabədi rayonunun Qaradolaq kəndində təsərrüfat sahəsi qismən yanıb, yanğının daha geniş əraziyə yayılmasının qarşısı alınıb. Ağcabədi rayonunun Arazbar kəndində təsərrüfat obyektinə mərmi düşməsi nəticəsində isə obyektin bir hissəsi yanıb, qalan hissə yanğından mühafizə olunub.

Azərbaycan.- 2020.-1 oktyabr.- S.8.